# Azərbaycan dünyada tək deyil

## *İranın Naxçıvana dron hücumları beynəlxalq aləmdə kəskin qınanıb*

**İranın Naxçıvanın ərazisinə pilotsuz uçuş aparatları vasitəsilə endirdiyi zərbələr regionun təhlükəsizlik arxitekturasına yönəlmiş qorxulu eskalasiya hesab olunmalıdır. Təxribatın dərhal ardınca qlobal dövlətlərin rəhbərləri ardıcıl şəkildə Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışıqları apararaq, rəsmi Tehranın qanunsuz hərəkətlərini qınadılar.**




Nümayiş etdirilən sinxron diplomatik reaksiyalar, səsləndirilən həmrəylik bəyanatları ölkəmizin hər zaman etibarlı tərəfdaşlarla əhatələndiyi reallığını təsdiqlədi. Məkrli hücum, sadəcə, iki qonşu dövlət arasındakı gərginlik adlandırıla bilməz. Bu hərəkət bilavasitə regional sabitliyə böyük təhdid forması kimi səciyyələndirilir. Hökumət dərhal müvafiq addımlar ataraq İranın ölkəmizdəki səfirini Xarici İşlər Nazirliyinə çağırıb, ona sərt etiraz notası təqdim edib.

***

Yaranmış mürəkkəb siyasi şəraitdə Birləşmiş Ərəb Əmirliklərinin nümayiş etdirdiyi qətiyyətli mövqe xüsusi qeyd olunmalıdır. Dövlətin rəhbəri Şeyx Məhəmməd bin Zayed Al Nəhyan operativ şəkildə zəng edərək dövlətimizə yüksək səviyyəli dəstəyini ifadə edib. BƏƏ lideri düşmənçilik hərəkətlərini şiddətlə qınayaraq, olayı təhlükəli eskalasiya, suverenliyin yolverilməz pozuntusu adlandırıb. BƏƏ Prezidenti fevralın 28-də cənub qonşumuzun öz ölkəsinə endirdiyi zərbələr zamanı Azərbaycan tərəfindən göstərilən güclü dəstəyə, məhz həmin vaxt terroru qınayan qətiyyətə görə təkrar dərin minnətdarlığını çatdırıb.

Həyata keçirilən diplomatik ünsiyyət əsnasında Prezident İlham Əliyev Azərbaycanın hər zaman BƏƏ-nin yanında dayandığını vurğulayıb. Yaxın Şərqin əsas güc mərkəzlərindən sayılan BƏƏ-nin nümayiş etdirdiyi diplomatik addım respublikamızın qlobal aləmdə formalaşdırdığı strateji tərəfdaşlıq şəbəkəsinin yenilməz gücünü əyani şəkildə təsdiqləyir.

Qlobal xəritədə ən yaxın müttəfiq olan Türkiyənin lideri Rəcəb Tayyib Ərdoğanın atdığı qətiyyətli addım qardaşlıq tellərinin sarsılmazlığını yenidən sübuta yetirdi. O, dərhal zəng edərək xalqımızın, habelə rəhbərliyin daim yanında durduğunu qətiyyətlə bəyan etdi. Rəcəb Tayyib Ərdoğan cənubda yerləşən dövlətin Naxçıvana yönəltdiyi terror aktını pisləyərək, ortaq düşmənçilik əməllərinə qarşı vahid cəbhədə dayandıqlarını bildirdi.

Telefon danışığında məsələyə münasibət bildirən Türkiyə lideri bunları vurğulayıb: "Azərbaycana qarşı edilən hər hücum bilavasitə bizə edilmiş sayılır". Göstərilən qardaşlıq dəstəyi Ankaranın hər zaman rəsmi Bakının siyasi, diplomatik, həmçinin hərbi masasında polad dayaq qismində durduğunu dünya ictimaiyyətinə nümayiş etdirdi. Heç kəs müstəqil dövlətimizin suverenliyini təhdid edə bilməz, çünki Türk dünyasının vahid müdafiə konsepsiyası anında hərəkətə keçməyə qadirdir.

Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin təcili əlaqə yaradaraq Naxçıvana yönəlik hücumu kəskinliklə pisləməsi qonşuluq münasibətlərinin mühüm göstəricisidir. Kobaxidze Gürcüstan hökumətinin, həmçinin xalqının Azərbaycanla həmrəy olduğunu vurğulayaraq, zərər çəkən vətəndaşların tezliklə sağalmalarını arzulayıb. Tbilisinin tutduğu ortaq mövqe regional təhlükəsizlik memarlığında iki ölkənin eyni cəbhədə dayandığını təsdiqləyir. Təcavüzkar hərəkətlərə qarşı sərgilənən həmin iradə Cənubi Qafqazda sülhün qorunmasına yönələn mütləq addımdır. Baş nazirin operativ reaksiyası terrora qətiyyən yer verilməyəcəyinin beynəlxalq aləmə bəyan edilməsidir.

Telefon danışığı qonşu dövlətlərin eyni təhdidlər qarşısında vahid blokda cəmləşmək əzmini göstərdi. Həmin rəsmi münasibət təxribatçı qüvvələrə açıq mesajdır: Qafqaz regionunda güc tətbiqi siyasəti qətiyyən işləmir. Gürcüstanın mütləq şəkildə Azərbaycanın yanında yer alması regional nəqliyyat marşrutlarının, habelə logistik dəhlizlərin təhlükəsizliyinin ortaq qayğı kimi dəyərləndirilməsini vurğulayır.

Azərbaycan rəhbərliyinə təkcə regiondan deyil, Asiya məkanından da güclü dəstək gəlməkdədir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev telefon danışığı əsnasında mülki infrastruktura, xüsusilə də məktəb binasına endirilən zərbələri qətiyyətlə pisləyib. O, Özbəkistanın hər zaman qardaş dövlətin yanında məğrurcasına dayandığını vurğulayıb. Özbəkistanın sərgilədiyi strateji mövqe türk dünyasının, eləcə də İslam aləminin ortaq problemlər qarşısında səfərbər olduğunu xəbər verir. Prezident Şavkat Mirziyoyevin operativ reaksiyası terroru yalnız uzaqdan qınamaq aktından ibarət sayılmır, eyni məqamda, tərəfdaşlığın çətin günlərdəki real testindən uğurla keçməsini təmsil edir.

Avropa qitəsindən nümayiş etdirilən Bakı ilə yekdillik reaksiyası mühüm siyasi əhəmiyyət kəsb edir. Latviya Prezidenti Edqars Rinkeviçs telefon danışığında Avropa İttifaqı məkanından ölkəmizə ciddi dəstək nümayiş etdirib. Latviya rəhbəri baş vermiş terror aktını şiddətlə pislədiyini, yaralanan dinc sakinlərə şəfa arzuladığını bəyan edərək, latış xalqının həmrəylik hisslərini rəsmi Bakıya çatdırıb. Şərqi Avropadan Albaniyanın Baş naziri Edi Rama həmçinin Monteneqro hökuməti qitə miqyasında aqressiyaya heç vaxt tolerantlıq göstərilməyəcəyini rəsmən elan ediblər. Avrasiya məkanında yerləşən Qazaxıstanın lideri Kasım Jomart Tokayevlə bərabər, bir sıra Qərb liderləri ardıcıl bəyanatlar yayaraq təxribatın bəşəri miqyasda qəbuledilməzliyini qlobal kütləvi informasiya vasitələrinin diqqətinə çatdırıblar.

İslam Əməkdaşlıq Təşkilatının, həmçinin Türk Dövlətləri Təşkilatının hadisə ilə bağlı qəbul etdiyi rəsmi bəyanatlar kollektiv təhlükəsizlik arxitekturasının tam aktivləşdiyini sübuta yetirir. Qeyd edilən beynəlxalq qurumların yaydığı sənədlər təcavüzkara qarşı vahid İslam coğrafiyasının təşkilatlanmasını nümayiş etdirir. Ərazi bütövlüyünü sual altına almağa çalışan hər hansı dairə dərhal qarşısında mütəşəkkil təsisatların sərt xəbərdarlığını görür. Yekun baxış göstərir ki, kənar qüvvələrin formalaşdırdığı zərərli ssenari respublikamızı daha sıx qlobal ittifaqlarla inteqrasiyaya sövq etdi. Sərhədlərin toxunulmazlığı faktı təkcə daxili güc resursları hesabına qorunmur, qlobal həmrəylik dalğası real vəziyyətin lehimizə dəyişməsinə aktiv vasitəçilik edir.

***

Azərbaycan cəmiyyəti xarici müdaxilələr qarşısında sarsılmaz iradə nümayiş etdirməkdə xüsusi nümunə yaradıb. Diplomatik müstəvidə həyata keçirilən təxirəsalınmaz gedişlər düşmənin küncə sıxışdırılmasını asanlaşdırır. Rəsmi Bakının apardığı çoxvektorlu, habelə balanslı xarici siyasət paradiqması regional təcridin qarşısını alaraq etibarlı dostlar şəbəkəsi qurmağı mümkün edib. Zəngəzur logistika xətti gerçəkləşdikcə, həm iqtisadi, həm də strateji cəhətdən regionda fərqli nizam formalaşır. Qlobal nəqliyyat qovşağının açılması mövcud güc mərkəzlərinin siyasi xəritəsini yenidən cızır. Ancaq məntiqi nəticə göz qabağındadır: təcavüzkar tərəf ağır sanksiyalar, siyasi embarqolar içərisində boğularkən, dövlətimiz beynəlxalq koalisiyanın güclü dəstəyi ilə mütəmadi irəli gedir, milli maraqların daimi müdafiəsini sığortalayır. Böyük dövlətlərin nümayiş etdirdiyi etibarlı rəftar gələcək onilliklərdə regionun arxitekturasında sülhün qarantı kimi fəaliyyət göstərəcək.

***Y. YAQUBOĞLU***
***XQ***

Xalq qəzeti .- 2026.- 7 mart (№ 44).- S.5.